# Belə bir məhkəmə bir gün Koçaryan üçün də qurulacaq

**Azərbaycan Vətən müharibəsində Ermənistanı biabırçı məğlubiyyətə uğradaraq kapitulyasiya aktını imzalamağa məcbur etdi. Antiterror tədbirləri zamanı separatçıları qarşısında diz çökdürən "dəmir yumruq" sərsəm "miatsum" ideyasının tabutuna son mismarı çaldı.**



Azərbaycanın bu parlaq qələbələri həm də qondarma dövlət olan Ermənistanın sabiq prezidentləri Serj Sarkisyanın və Robert Koçaryanın utancverici məğlubiyyəti kimi tarixə düşdü. İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatları zamanı məhz uşaq qatilləri olan faşist Koçaryan-Sarkisyan cütlüyünün ətrafında məğlubedilməz mif yaratdıqları orduları darmadağın edildi.

## Yalançı qəhrəmanların acı aqibəti

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2020-ci il noyabrın 23-də Ağdam Cümə məscidinin qarşısındakı çıxışında "Biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik" demişdi: "Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız".

Erməni şovinistləri tərəfindən başladılan və Qarabağın Ermənistana birləşdirilməsi kimi çirkin məqsədə xidmət edən münaqişədə məhz Koçaryan və Sarkisyan kimilərin hərbi cinayətlər törətməsi nəticəsində on minlərlə insan həyatını itirib. Azərbaycanın əraziləri işğal edilib, xalqımıza qarşı qətliamlar, soyqırımlar törədilib. Ancaq haqq-ədalət sonda öz yerini tapıb və İkinci Qarabağ müharibəsində Koçaryan-Sarkisyan cütlüyü bir daha özünə gələ bilməyəcəyi ağır məğlubiyyətə düçar edilib.

Bu qaniçənlərin hər ikisi torpaqlarımızı işğal etmələri, azərbaycanlılara qarşı tükürpədici cinayət əməlləri törətmələri ilə həyasızcasına qürrələnirdilər.

Məsələn, Robert Koçaryan 2003-cü ildə AŞPA-da etdiyi çıxışında ermənilərlə azərbaycanlıların etnik uyuşmazlığı barədə bəyanat vermişdi. Bir ildən sonra sözügedən qurumda özünün faşist xislətini bir daha nümayiş etdirmişdi. Belə ki, həmin zaman həm çıxışında, həm də suallara cavabında Koçaryan daxili hisslərini büruzə verməklə özünü ifşa etmiş və hərbi əməliyyatlarda iştirakı ilə fəxr etdiyini demişdi. Bütün bunlar isə Koçaryanın irqçi, müharibə canisi olduğunu və əllərini yüzlərlə azərbaycanlının qanına batırdığının öz dili ilə etirafı idi. Lakin Koçaryan və Sarkisyan İkinci Qarabağ savaşı zamanı müharibə meydanından qaçaraq zorla canlarını qurtara bildilər.

Bu baxımdan müharibədə uğradıldığı utancverici məğlubiyyəti hələ də həzm edə bilməyən Ermənistanın eks-faşist rəhbəri Koçaryanın vaxtaşırı ölkəmizlə bağlı sərsəmləmələr etməsi heç də təəccüblü görünmür.

## Rüsvayçı məğlubiyyət

Bildirək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin, eləcə də Ruben Vardanyanın barəsində olan cinayət işləri üzrə məhkəmə prosesləri davam etdirilir.

Bu günlərdə cani Koçaryan mətbuat konfransı keçirərək xalqımıza qarşı saysız cinayətlər törətməkdə təqsirləndirilən ermənəsilli şəxslər üzərində Bakıda keçirilən məhkəməyə "münasibət" bildirib. O, mətbuat konfransında etdiyi çərənləmələrlə guya öz aləmində sözügedən məhkəməyə dil uzatmaq istəyib. Ancaq Ermənistanda məhkəmə sisteminin hansı bərbad vəziyyətdə olmasını, müstəqil olmayan məhkəmələrin sifarişlə işləmələrini elə həmin qondarma dövlətin siyasi şərhçiləri vaxtaşırı faktlarla ortaya qoyurlar və biz də bunları mediadan izləyirik.

Həmçinin Koçaryan konfransdakı sözləri ilə uğradıqları biabırçı məğlubiyyətlərin səbəblərini Paşinyan hakimiyyətinin üzərinə yıxmağa çalışıb. Halbuki, hiyləgər Koçaryanın özü də yaxşı bilir ki, Azərbaycan bu savaşda onun və S.Sarkisyanın qurduqları ordunu məğlubiyyətə uğradıb.

Koçaryanın Bakıda keçirilən və ədalətin qələbəsi sayılan məhkəmə ilə bağlı dediyi sözlər onun rüsvayçı məğlubiyyətdən doğan quyruq acısından başqa bir şey deyil. Axı bu cani iki yüz il əvvəl faşist xislətli erməni babaları tərəfindən ortaya atılan qanlı planları xüsusi canfəşanlıqla gerçəyə çevirməyə çalışsa da, bunu bacarmayıb və hər şey məhv olub. Faşist Koçaryana isə indi sadəcə ədalət məhkəməsində vaxtilə törətdikləri cinayət əməllərinə görə mühakimə edilən uşaq qatilləri arayik-kimilərin vəziyyətini dişi bağırsağını kəsə-kəsə seyr etmək, bir də arabir sərsəmləmək qalıb...

Belə bir məhkəmə isə bir gün Koçaryan üçün də mütləq qurulacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 19 fevral (№37).- S.14.